

Əbülfət MƏDƏTOĞLU

# YAŞANANIN PIÇILTIDA İFADƏSİ...

### *Bu dəfə Əlizadə Nuriyə qoşularaq*

Adətən bütün qələm adamları yaşadıqlarını, duyduqlarını, xəyallarını, bəzən hətta yuxularını da yazıya köçürüb oxucuya təqdim edirlər. Bu, təkcə onların oxucuya nəyisə təqdim etmək istəkləri deyil. Bu, həm də öz düşüncəsini, öz iç dünyasını bölüşməkdi. Mən deyərdim ki, bu, bir az da obrazlı şəkildə oxucu ilə canlı bağlantı, fikir bölüşməsidi. Bütün hallarda isə bu, bədii bir fikrin ortaya qoyulmasıdı...

Yaradıcılığına kifayət qədər bələd olduğum, mənim nəslimin sayılıb-seçilən ŞAİRi olan Əlizadə Nurinin şeirləri ilə baş-başa qalanda elə bilirəm ki, özüm-özümlə söhbət edirəm. Sanki iki dost, iki həmfikir insan uzun ayrılıqdan sonra qarşılaşıb və çəkilib bir hücrədə özlərini bölüşürlər, öz dünyalarını sərgiləyirlər.

Bax, bu mənada Əlizadə ilə söhbətləşmək mənim ruhuma bir rahatlıq gətirir. Çünki onun misraları, onun şeirləri ruhuma səpilən şehdi.

Ovcumda sıxıb qoxuladığım bir qom bənövşədi. Və mən o şehli bənövşələrin ətrindən təkcə bihuş olmuram, həm də özümdən qopub çıxıb gedirəm Allahımın və Sənin yanına. Çünki mənim əlimdən tutub aparan Əlizadənin ilhamıdı, vəsfidi, lap kəsə desəm, pıçıltısıdı. Əlizadə deyir ki:

*Tüstüsü içində boğulan damam,*
*Dünən oğlum idim, sabah atamam.*
*Mən paxıl adamam, paxıl adamam, -*
*Qoymaram kiməsə bir kədər qala.*

İndi özünüz düşünün. Bu boyda paxıllığı olan və onu da çəkinmədən birbaşa oxucusunun, bu yerdə isə mənim üzümə deyən Əlizadə Nuri görün hansı etirafı edir. Bunu zənnimcə yalnız ŞAİR edə bilər. Necə ki, Əlizadə edibdi. Üstəlik, o həm də təkcə etirafını bu gün üçün yox, dünən və sabah üçün də dilə gətirib.

Bu gerçəkliyi, bu reallığı qəbul edib-etməmək isə artıq oxucunun seçimidi. Şəxsən mən əvvəldə də dediyim kimi, Əlizadənin pıçıltılarının aurasındayam. Və bu aurada yadıma "Etiraf anı" düşür. Mən orda yazmışam ki, daha doğrusu etiraf etmişəm ki:

*Heç nə yaza bilmədim,*
*göynədi vərəq - sinə...*
*unutdum...və getmədim -*
*Tanrının son dərsinə...*

Son dərsə getməmək təkcə unutqanlığımın fəsadı deyil, bu həm də ,özümün harda olduğumu bilməməyimin diktəsidi. Həmin o diktənin içərisində çabaladığım məqamda isə hardansa bir qeyb nidası eşidilir. O nida indiki anda bu misraları çatdırır mənə.

*Sinəm bir saraydı, - gəzir xan səni,*
*Gəlib istəyimmi yaxandan səni?*
*Axtara, tapmaya bir oğlan səni, -*
*Bu dərdin əlində dərbədər qala...*

Bundan gözəl qarğış, bundan gözəl alqış kimin ağlına gələ bilər ki. Yenə ancaq ŞAİRin, yəni, Əlizadə Nurinin. Çünki onun özü o alqışla qarğışın içərisində dərbədərdi. Və məni də özünə könüllü qoşub dərbədər edibdi. Ona görə mən də:

*İçimdəki boşluğun,*
*yaşadım sərxoşluğun...*
*Bir-birinə qoşduğum -*
*sonda gəldi tərsinə!..*

Deməli, ruhların həmrəyliyi, həmfikirliyi, şairin şair dostuna, əqidədaşına, lap adi formada desək, çiyindaşına ruhən qoşulması sən demə sözün işığını da, çəkisini də artırırmış. Təbii ki, bu məqamda mən Əlizadənin ruhuna qoşulub mənim ağlımı və ürəyimi də özü ilə alıb-aparan ruhumdan danışıram. Onu önə çıxarıram. Düşünürəm ki, bizim ruhlarımızın gözdən uzaq, amma könüllərə sığınıb pıçıldaşmaları həm onların, həm bizim, həm də sözün qazancıdı. Çünki:

*Dünyanı böldük ki, belə kəm düşə?*
*Mənə də eşq adlı bir aləm düşə...*
*Bu çöldə əlinə bir qələm düşə,-*
*Hamını pozasan... bir nəfər qala.*

Nə gözəl arzudu. Deyə bilərsiniz ki, bu arzunun içərisində bir şübhə məqamı da, bir tərəddüd anı da, hətta bir güman, bir bəlkə... anı da var. Olsun. Son nəticə, yəni qələm öz işini görüb qurtarandan sonra nəticə ortada görünəcək. Bilinəcək ki, kimin adı silinib, kiminki qalıb. Mən münəccimlik etmədən deyə bilərəm ki, silinməyən ad Əlizadəninki olacaq. Axı mən ona qoşularaq demişəm ki:

*Baxıb dodaq qaymağa*
*əhd etmədim doymağa...*
*Mən üzümü qoymağa -*
*açılmadı - tər sinə!..*

Görürsünüz, necə içdən gələn bir dəliqanlılıq ilə Əlizadənin səsinə səs vermişəm, onu meydanda tək qoymamışam. Qınamayın ki, özümü təriflədim. Bu da içdən gəldi. Və...

Şairlərin taleləri adətən oxşar olur. Bu da onların ruhları ilə, duyğuları ilə. Təbii ki, həm də yaşamları ilə bağlı məqamlardan qaynaqlanır.

Amma Şeyx Nizaminin, Şeyx Füzulinin göylərə qaldırdığı eşq o qədər ilahi bir qüdrətə malikdir ki, o, lalın da dilini açır. Deməli, mənim üçün sevginin, eşqin dilini bülbül dilinə çevirən şairlərimizin içərisində Əlizadənin özəl yeri birmənalıdı. Bax, ona görə də ruhlarımız qoşulub bir-birinə çəkilir bir küncə və pıçıldaşır.

Əlizadənin ruhu deyir ki:

*...Düşür GÜL - ÖMÜRDƏN hər gün bir ləçək...*
*Gətir əllərini - üşüyür ələk.*
*...Bir gün uzaqlara köçüb gedəcək, -*
*Çətin səndən sonra bu şəhər qala...*

Mənə görə bu ilahi pıçıltıya susaraq könül vermək, onu bağrına basıb canına hopdurmaq ən dürüst qərar olar. Mən qərarı seçərək özüm də pıçıldayıram.

*Sevdi dərdim ürəyi,*
*Sıxdı, sərdim ürəyi...*
*Umdu, verdim ürəyim -*
*Bir ilham pərisinə...*

Bax, belə. Mən Əlizadə Nuri ilə çox kiçik bir zaman kəsiyini göy üzündə, Allaha yaxın bir yerdə ruhlarımızın ixtiyarına verdim.

Onlar pıçıldaşdı və mən o pıçıltını bu yazıya - Sizin oxuduğunuz yazıya çevirdim. Özü də nöqtə, vergülünə toxunmadan. Çünki:

- AXI, SÖHBƏT İLAHİ EŞQDƏN, İLAHİ SEVGİDƏN GEDİR!

İnanmırsınızsa, təkrar oxuyun...